# İslahatlar həm konseptual, həm də struktur xarakteri daşıyır



**Prezident İlham Əliyevin rəhbərliyi ilə 2019-cu ildən başlanan genişmiqyaslı sosial-iqtisadi islahatların yeni mərhələsi respublikada yüksək dayanıqlı iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələnməsi, özəl investisiyaların və təşəbbüslərin yüksək səviyyədə təşviqi üçün əlverişli zəmin yaradıb. Struktur-institusional islahatlar isə keyfiyyətcə yeni sosial-iqtisadi artım modelinə keçidi şərtləndirib və bundan əsas məqsəd isə Azərbaycan vətəndaşlarının rifahının daha da yaxşılaşdırılması olub.**

Dövlətimizin başçısı altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində də islahatların həm konseptual, həm də struktur xarakteri daşıdığını bildirib: "Kadr islahatları aparılır. Son müddət ərzində Prezident Administrasiyası demək olar ki, tam yeni tərkibdə formalaşmışdır və yeni şöbələr yaradılmışdır. Bu şöbələrin yaradılması, eyni zamanda, dediyim sözləri bir daha təsdiqləyir, bizim niyyətimizi təsdiqləyir. Nazirlər Kabineti yeni tərkibdə formalaşmışdır. Hazırda Nazirlər Kabineti daha operativ və çevik fəaliyyət göstərir. Nazirliklərdə kadr islahatları aparılmışdır, yerli icra orqanlarında bu islahatlar aparılır və aparılacaq... ".

Azərbaycan Prezidenti daha sonra iqtisadi islahatların gerçəkləşdirilməsi hesabına bir sıra mühüm uğurların əldə olunmasını diqqətə çatdırıb. Vurğulayıb ki, təkcə şəffaflıq hesabına keçən il büdcəyə proqnozdan 1 milyard manat çox vəsait daxil edilib. Bu ilin iki ayında isə vergi və gömrük orqanları tərəfindən proqnozdan əlavə 252 milyon manat çox vəsait yığılıb.

Azərbaycanda aparılan islahatları bir sıra maliyyə qurumları, o cümlədən, Dünya Bankı (DB) daim dəstəkləyir. Məhz elə buna görədir ki, ölkəmiz DB-nin "Doing Business 2020" hesabatında ən islahatçı 20 ölkədən biridir.

Azərbaycan 28 illik əməkdaşlıq dövründə DB-dən texniki, maddi, ümumiyyətlə, hərtərəfli dəstək alıb. Bu beynəlxalq maliyyə qurumu ilə ölkəmizin uzunmüddətli və davamlı əməkdaşlığının əsasını ümummilli lider Heydər Əliyev qoyub. Dahi şəxsiyyətin rəhbərliyi ilə liberal bazar iqtisadiyyatının seçilməsi DB tərəfindən dəstəklənib. Struktur islahatlarının dərinləşdirilməsi, sosial-iqtisadi infrastrukturun bərpası və inkişafı, yoxsulluğun azaldılması və digər sahələr Azərbaycanın DB ilə əməkdaşlığının başlıca istiqamətləri olub.

Yuxarıdakı fikri bir qədər də konkretləşdirib deyə bilərik ki, DB Azərbaycanda təhsil və səhiyyə sisteminin yaxşılaşdırılması, nəqliyyat və su kanalizasiya sisteminin təkmilləşdirilməsi, kənd təsərrüfatının, enerji sektorunun inkişafı, ətraf mühitin və mədəni irsin qorunması kimi bir sıra sahələrdə həyata keçirilən layihələrə dəstək verib, neft sektoru üzrə iri layihələr hökumətlə birgə həyata keçirilib. Bu maliyyə qurumunun Azərbaycan üçün strateji layihələrə, o cümlədən, "Cənub Qaz Dəhlizi" layihəsinə verdiyi dəstək ölkəmiz üçün mühüm önəm daşıyıb.

Yeri gəlmişkən, burada bir məqama da toxunmaq istərdik. Azərbaycanın DB ilə əməkdaşlığı illərində müvafiq kredit layihələri əsasında böyük maliyyə vəsaiti qaçqın və məcburi köçkünlər üçün infrastrukturun qurulmasına, bu sahədə mövcud potensialın gücləndirilməsinə yönəldilib.

Xatırladaq ki, bu ilin fevral ayında Prezident İlham Əliyev və DB-nin icraçı direktoru Aksel Van Trontsenburq arasında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən görüşdə gələcək əməkdaşlıq planları barədə müzakirələr aparılıb. Dövlətimizin başçısı çıxışında Azərbaycanın müstəqilliyinin ilk illərində Dünya Bankından və başqa beynəlxalq maliyyə təşkilatlarından böyük həcmdə maliyyə dəstəyi əldə ediyini, Azərbaycanın indi donor ölkəyə çevrildiyini vurğulayıb: "Bir vaxtlar biz də hazırda dəstəyə ehtiyacı olanların vəziyyətində olmuşuq. Biz maliyyə, resurs olmadıqda, təqribən 50 faiz ətrafında yoxsulluq yaşadıqda, bunun nə qədər çətin olduğunu bilirik. Buna görə də həyata keçirdiyimiz islahatların əsas hədəfi iqtisadi inkişaf vasitəsilə əhalinin sosial rifahını yaxşılaşdırmaqdan İndi isə əhalimiz arasında yoxsulluq həddində yaşayanların sayının 5 faizdən aşağı olması, düşünürəm ki, bəzi digər ölkələr üçün də yaxşı nümunədir. Bu, onu göstərir ki, yoxsulluq bununla barışaraq ömürlük yaşayacağınız bir şey deyil. Əgər siz xarici investisiyalar üçün açıqsınızsa, əgər siz maliyyə institutları ilə konstruktiv şəkildə işləyirsinizsə, əgər sizin inkişafa dair aydın baxışınız varsa bir gün siz bunun öhdəsindən gələcək və donor ölkəyə, iqtisadi və sosial vəziyyəti sabit olan bir ölkəyə çevriləcəksiniz. Buna görə bir daha sizə davamlı dəstəyinizə, nəinki Azərbaycan, eyni zamanda, Avropanın enerji təhlükəsizliyi üçün önəmli olan "Cənub Qaz Dəhlizi" layihəsinin icrasına göstərdiyiniz dəstəyə görə minnətdarlığımı ifadə etmək istəyirəm".

Ölkəmizdə reallaşdırılan islahatlar nəticəsində əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin istehlak tələbinə uyğun artırılması və indeksləşdirilməsi, əhalinin real gəlirlərinin bazar səviyyəsinə uyğunlaşdırılması, aztəminatlı insanların, tələbələrin, əlillərin, şəhid ailələri və veteranların sosial müdafiəsinin təşkili, sosial sığorta qaydalarının, ünvanlı sosial yardım, pensiya sisteminin təkmilləşdirilməsi, bu sahədə artımlar Azərbaycan dövlətinin çoxşaxəli sosial siyasətinin təzahür formalarının yalnız bir hissəsidir. Ölkəmizdə sosial sahədə görülən işlərin miqyasını təsəvvür etmək üçün təkcə maaş və pensiyaların, o cümlədən minimum əməkhaqqının son 16 ildə bir neçə dəfə artırıldığına nəzər salmaq kifayətdir.

Sosial sahə üzrə görülən işlər bir tərəfdən Azərbaycan dövlətinin gücünü, digər tərəfdən də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin səmərəliliyini, reallaşdırılan islahatların yüksək nəticələr verdiyini göstərir.

Dövlətimizin başçısı altıncı çağırış Milli Məclisin ilk iclasındakı nitqində də Azərbaycanın sosial dövlət olduğunu və atılan bütün addımların bunu təsdiqlədiyini qeyd edib: "Təkcə keçən il mənim təşəbbüsümlə reallaşan sosialyönümlü paket 4,2 milyon insanı əhatə edir. Minimum əməkhaqlarının, minimum pensiyaların müntəzəm olaraq qaldırılması, əlbəttə ki, böyük iqtisadi mənbə tələb edir və bunu da biz yaradırıq. Ölkəmizdə şəffaflıqla bağlı gedən proseslər, kölgə iqtisadiyyatına qarşı olan proseslər bizim iqtisadi imkanlarımızı gücləndirir, vergi bazasını genişləndirir, kölgə iqtisadiyyatına qarşı çox ciddi zərbə olur…".

Ümumiyyətlə, ötən il təqdim edilən iki sosial paket nəticəsində minimum əməkhaqqı 2 dəfəyə yaxın artırılaraq 130 manatdan 250 manata, minimum pensiya isə 72,4 faiz artırılaraq 116 manatdan 200 manata çatdırılıb. Sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb. Şəhid ailələri üçün təqaüdlər 242 manatdan 300 manata çatdırılıb. Dövlət sektorunda işləyənlərin əməkhaqları 50 faizədək, məcburi köçkünlərin müavinətləri 50 faiz, o cümlədən tələbələrin təqaüdləri artırılıb, 800 min insanın problemli kredit narahatlığına son qoyulub. Keçən ildəki iki sosial paketin əhatə dairəsi 4,2 milyon nəfər, illik maliyyə yükü 3 milyard manatdan çox olub. Azərbaycan minimum pensiyanın alıcılıq qabiliyyəti indeksi (PPP) üzrə MDB-də 1-ci yeri tutub.

İş yerlərinin yaradılması, özünüməşğulluğun təmin olunması ölkədə işsizliyin kəskin şəkildə azalması ilə nəticələnib. Eyni zamanda, Azərbaycanda əmək və məşğulluq sahəsində həyata keçirilən islahatlar nəticəsində əmək qanunvericiliyi beynəlxalq əmək normalarına uyğunlaşdırılıb, əmək bazarının təkmilləşdirilməsi, əmək münasibətlərinin sosial dialoq, kollektiv müqavilələr və sazişlərlə tənzimlənməsi istiqamətində uğurlu nəticələr əldə olunub.

Dövlət Statistika Komitəsinin yaydığı məlumatda nəzərə çarpdırılan göstəricilər də respublikada iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin olunması məsələsinə diqqətlə yanaşılmasından xəbər verir. Belə ki, həyata keçirilən islahatlar nəticəsində keçən il ölkədə 192 min yeni iş yeri açılıb. Həmin iş yerlərinin 27 faizi qeyri-dövlət sektorunda olub. Yeni iş yerlərinin 55,5 faizi Bakı şəhərinin, 1,7 faizi Naxçıvan Muxtar Respublikasının, 42,8 faizi digər regionların, o cümlədən 16,3 faizi Aran, 6,9 faizi Gəncə-Qazax, 5,9 faizi Lənkəran, 3,6 faizi Abşeron, 3,3 faizi Şəki-Zaqatala, 2,4 faizi Dağlıq Şirvan, 2,2 faizi Yuxarı Qarabağ, 2,1 faizi Quba-Xaçmaz, 0,1 faizi isə Kəlbəcər-Laçın iqtisadi rayonlarının payına düşüb.

Son illərdə sənaye zonalarının, aqroparkların yaradılması da yeni iş yerlərinin açılmasına müsbət təsir göstərib. Azərbaycan Prezidentinin tövsiyəsi ilə kənd təsərrüfatı sektoruna kapital qoyuluşu artıb. Bu hesaba indi regionlarda aqroparklar və iri fermer təsərrüfatları yaradılır. 33 rayonda 51 aqropark və iri fermer təsərrüfatının yaradılmasının planlaşdırılması da bunu təsdiqləyir. Keçən il isə 16 aqropark və iri fermer təsərrüfatında görülən işlər başa çatıb, məhsul istehsalına başlanılıb.

Son illər aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində yoxsulluq və işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azaldılıb, vətəndaşların rifah halı yüksəlib, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sistemi təkmilləşdirilib, insan kapitalının və sosial infrastrukturun inkişafına nail olunub, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsi gücləndirilib. Aparılan siyasət, atılan addımlar bütün sosial problemlərin həllini tapacağına, hər bir Azərbaycan vətəndaşının həyatında müsbət dəyişikliklərə səbəb olacağına əminlik yaradıb.

**"Xalq qəzeti"**